# ZƏFƏR BAYRAMI VƏTƏN TARİXİNİN ŞANLI SƏHİFƏSİDİR

2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı son dərəcə anlamlı və qanunauyğundur. Çünki, məhz 2025-ci ildə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu, həmçinin 44 günlük Vətən müharibəsində qazanılmış böyük zəfər nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyünün bərpa olunmasının 5-ci ildönümüdür. 2023-cü il sentyabrın 19-20-də Yuxarı Qarabağda həyata keçirilmiş uğurlu antiterror əməliyyatındakı parlaq qələbə sayəsində isə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi bütün ərazilərimizdə bərqərar olmuş, suverenliyimiz tam şəkildə təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si gününün Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilməsi də, bu reallıqların nəzərə çarpdırılması baxımından xüsusilə qiymətlidir.

Azərbaycanın suverenliyi nə 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti ilk dəfə elan edilərkən, nə də 1991-ci ilin oktyabrında dövlət müstəqilliyi təzədən bərpa olunarkən, rəsmi sənədlərdə ölkəmizə aid ərazilərin hər bir guşəsində bərqərar olmamışdı. Bu ülvi millət arzusu və dövlət idealını reallaşdırmaq Prezident İlham Əliyevin polad iradəsi, qətiyyətli siyasəti sayəsində mümkün olmuşdur. Bu, dövlət institutlarının möhkəmlənməsi, ordunun gücləndirilməsi, iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi sayəsində gerçəkliyə çevrilmişdir.

44 günlük müharibədə möhtəşəm qələbə Vətən tarixində yeni mərhələnin, milli birliyin və dövlətçilik yetkinliyinin simvoludur. Azərbaycan üçün bu gün həm də yeni milli identikliyin, güclü siyasi iradənin və güclü dövlətçilik xəttinin məntiqi nəticəsidir. Qalib xalq adını özümüzə qaytaran böyük tarixi zəfərdir.

Bu böyük zəfərin 5 illiyinə həsr olunan hərbi parad Azərbaycanın döyüş meydanında qazandığı qələbənin diplomatik masada möhkəmləndirilməsi – legitimləşdirməsinin möhtəşəm simvolu olmuşdur. Çünki masada güclü olmağın, bütün diplomatik uğurların arxasında güclü ordu fenomeni dayanmaqdadır. Azərbaycan XXI əsrin 25 ili ərzində müharibənin və masanın qalibi - döyüşü və sülhü qazanan yeganə ölkəsidir. 44 günlük müharibədən sonrakı 5 il ərzində diplomatik müstəvidə gedən mübarizə müharibənin özü qədər çətin olmuşdur. Döyüş meydanına təslim olan Ermənistan rəhbərliyi ümid edirdi ki, danışıqlar masasında müəyyən nəticələr əldə edə biləcək, yaxud Azərbaycanın müharibədəki qələbəsinin diplomatik müstəvidə rəsmiləşməsinə imkan verməyəcək. Bu prosesdə Ermənistanın həm regionda, həm regiondan kənarda kifayət qədər dəstəkçisi də var idi. Müharibəni qazanmışdıq, növbə bu qələbəni masada legitimləşdirməkdə idi və güclü orduya malik olan Prezident İlham Əliyevin diplomatiyası Azərbaycanı sülhün də qalibinə çevirmişdir.

8 avqust Vaşinqton görüşü və imzalanan sənədlər bu prosesin məntiqi nəticəsi olmuşdur: sülh sazişi paraflanmış, Azərbaycanın bütün tələbləri qəbul edilmişdir. Minsk qrupu de-yure ləğv olunmuş, Zəngəzur dəhlizinin (TRİPP) açılması rəsmiləşmişdir.

**t.ü.f.d. Nüşabə Quliyeva**
Baş redaktor
Azərbaycan Universitetinin
Beynəlxalq Magistratura və Doktorantura
Mərkəzinin direktoru